*Hüseynova Aysel Tərlan qızı,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*Email: ays0102@list.ru*

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAF POTENSİALI

Turizm sektoru daim dəyişən demoqrafik və müxtəlif coğrafiyaya malik iqtisadiyyatın sürətlə inkişaf edən sektorudur. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Hazırda turizm sektoru dünya üzrə ümumi daxili məhsulun 9, ixracın isə 6 faizini təşkil edir. Respublikamızda ÜDM-un 4,5 faizini turizm sektoru təşkil edir (Bu göstəricinin 2024-cü ilə qədər 5,5%-ə qədər artması gözlənilir). Turizm sektorunun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirib. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir. Neft, tibb, maşınqayırma sahəsindən sonra dördüncü ən gəlirli sahələrdən biridir. Təbii ki, Qarabağın və ətraf rayonların turizm imkanlarından tam istifadə etmək yalnız üç əsas amil təmin edildikdən sonra mümkün olacaq. Bunlar təhlükəsizlik, əhalinin qayıdışı və infrastrukturun yaradılmasıdır. Digər bir məsələ də bu bölgəyə investisiyaların cəlbidir. İlkin olaraq nəqliyyat infrastrukturunun, mülki infrastrukturun yaradılması və investisiyalar üçün şəraitin qurulması əsasdır. Azərbaycan hökuməti Qarabağ bölgəsinin ərazilərinin işğaldan azad edilməsindən dərhal sonra rayonların yenidən qurulması işlərinə başladı. Demək olar ki, dərhal Füzuli rayonunda yeni hava limanının və Füzuli-Şuşa istiqamətində yolun təməli qoyuldu.

Əlavə olaraq, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı əsasında Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi Füzuli, Xocavənd və Şuşanın turistlər üçün əlçatan olmasını təmin edəcəkdir. Bununla yanaşı, Kəlbəcər-Laçın istiqamətinə Göygöl rayonundan başlayaraq magistral yol salınması nəzərdə tu-

tulmuşdur. Bölgəyə turistlərin əlçatanlığının təmin edilməsi üçün dəmir yol xətlərinin bərpası mühüm hesab edilir və bununla bağlı ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yol xəttinin bərpası üzrə işlər həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı turizmin və turizm klasterlərinin inkişafı, təşviqedici və tənzimləyici siyasət mexanizmlərinin işlənilməsi, innovativ texnologiya alətlərinin tətbiqi, turizm infrastrukturu, dövlət-özəl əməkdaşlıq və digər prioritet istiqamətlər əsasında Qarabağ Turizm Strategiya layihə sənədi hazırlanıb. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərin geniş turizm potensialı nəzərə alınaraq, Dövlət Turizm Agentliyi tərəfindən "Yolumuz Qarabağa" konseptual turizm marşrutlarının layihələri təqdim edilib. Layihə sənədi əsasında Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi ilə müvafiq əməkdaşlıq əsasında "Yolumuz Ağdama" turizm marşrutunun təşkili ilə bağlı tələb olunan müvafiq infrastruktur işləri həyata keçirilib. Dövlət Turizm Agentliyi tərəfindən "Şahbulaq Qalası"na dair ilkin memarlıq və turizm inkişaf konsepsiyası hazırlanıb [8]. Azərbaycan Turizm Bürosu (ATB) yeni və faydalı internet saytını istifadəyə verib. Whereis Karabakh.com saytı Qarabağı tanıtmaq üçün yaradılmış onlayn platformadır. Platformanın əsas məqsədi Qarabağın harada yerləşdiyini dünyaya göstərmək, eləcə də region haqqında bir çox maraqlı şeyləri öyrənməyə kömək etməkdir. İstifadəçi xəritədə istənilən nöqtəni seçib, müəyyən ölkədən Qarabağa qədər olan məsafəni görə biləcək, həmçinin: tarix, xalçaçılıq və muğam sənəti, görkəmli şəxsiyyətlər, abidələr, Qarabağ atları və s.

Bununla belə, artıq ölkə xaricində işğaldan azad edilmiş ərazilərin turizm imkanlarının təbliğinə başlanılıb. Belə ki, dekabr ayının 9-10-da Azərbaycan Turizm Bürosu (ATB) tərəfindən Cənubi Asiya ölkələrinin iştirak etdiyi "Travel Meet Asia 2020" və Özbəkistanın turizm şirkətlərinin qatıldığı "Tour Expo Tourism Fair" adlı virtual tədbirlərdə Qarabağ və onun turizm imkanları təbliğ edilib. Tədbirlər çərçivəsində keçirilmiş görüş və vebinarlarda istirakçılara Azərbaycanın, xüsusilə işğaldan azad edilmiş ərazilərin turizm imkanları haqda məlumat verilib.

Bundan başqa, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Gulf Travel Show" sərgisində işğalçılardan azad edilmiş Qarabağ bölgəsinin turizm potensialı haqda və müvafiq tədbirlərdən sonra bölgənin yeni turizm destinasiyaları sırasına daxil ediləcəyi barədə məlumat verilib. Azərbaycan Turizm Bürosu, həmçinin Londonda keçirilən dünyanın tanınmış turizm sərgilərindən olan Dünya Səyahət Bazarı sərgisində ("WTM London-2020") iştirak edib. Virtual görüşlər çərçivəsində istirakçılar Dağlıq Qarabağ və ətraf rayonların turizm potensialı barədə məlumatlandırılıblar. Həmçinin vurğulanıb ki, qeyd olunanlar ilə yanaşı, Dubayda "ATM 2021" (Arabian Travel Market 2021) və Moskvada "OTDYKH Leisure" turizm sərgilərində Qarabağın turizm potensialı təqdim edilib: Dövlət Turizm Agentliyi tərəfindən qəbul edilmiş "İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişafına dair Fəaliyyət Planı"na uyğun olaraq strateji inkişaf, turizmin inkişafı və təşviq olunması, turizm və rekreasiya zonalarının yaradılması, sağlamlıq və qış turizmi resurslarının layihələndirilməsi və digər tədbirlərin icrası nəzərdə tutulub. Ümumilikdə, işğaldan azad edilmiş ərazilərdə bir neçə turizm klasteri yaradıla bilər. Bu, ilk növbədə Füzuli-Xocavənd-Şuşa-Laçın istiqa-

mətidir. Digər klaster paralel olaraq Füzuli-Cəbrayıl-Zəngilandır. Zəngilan-Qubadlı üçüncü, dördüncü klaster Kəlbəcər-Laçındır, beşinci klasterə Bərdə-Ağdam daxildir. Regionların ayrı-ayrılıqda turizm potensialında Şuşa yüksək qiymətləndirilir. Burada mədəni tədbirlərin təşkili, festival turzim məhsulları təqdim edilə bilər. Laçın-Kəlbəcər istiqamətində təbiət, qış turizmi və sağlamlıq turizmi, Qubadlı-Zəngilanda mədəniyyət və təbiət, Füzuli-Ağdam-Cəbrayılda isə mədəniyyət və işğalın nəticələrini göstərmək üçün bəzi tikililər saxlanılmaqla turistlər üçün nümayiş etdirmək lazımdır. Çünki turizmin iqtisadi tərəfi ilə yanaşı, tanıtım tərəfi də var. Qarabağ turizm və rekreasiya zonası üçün Kəlbəcərdə İstisu bölgəsinin böyük imkanları mövcuddur. Uzun müddət İstisu bulağından sağlamlıq və kurort məqsədi üçün istifadə edilməsi ərazinin inkişafına zəmin yaradır. Bununla bağlı, Kəlbəcərdə İstisu, Vəng, Zülfüqarlı kimi təbiət ərazilərində rekreasiya imkanları yüksəkdir. Kəlbəcər, Zəngilan, Xocavənd, Qubadlı və Laçın bölgələrində yaradılması planlaşdırılan turizm və rekreasiya zonalarının əraziləri Dövlət Turizm Agentliyi tərəfindən müəyyən edilmişdir. Turizm və rekreasiya zonaları ilə yanaşı, Şuşada Xarıbülbül və Qarabağ mehmanxanaları ən son standartlara uyğun formada təmir edilmişdir. Kəlbəcər və Laçında həm iri turizm obyektləri yaradılma-sını təşviq etmək, həm də kənd turizmini inkişaf etdirmək olar: məskunlaşacaq əhali üçün kənd turizminin inkişafı çox vacibdir, onların gəlirlərinin formalaşmasına və artmasına xidmət edə bilər. Həmçinin yerli və xarici iş adamları iri turizm obyektləri tikməyə sövq edilməlidir. İnvestisiya axınını təmin etmək üçün iş adamları vergidən azad edilə bilər. Artıq Türkiyəli sahibkarların Qarabağ bölgəsinə maraq göstərdiklərini misal çəkə bilərik. Laçında kifayət qədər geniş istirahət imkanları var. Həmçinin rayonda mineral su mənbələrinin olması içki sənayesində yeni istehsal müəssisələrinin yaranmasına səbəb olacaq. Ərazisi 21 min hektardan çox olan, zəngin flora və faunaya malik Laçın qoruğu, müalicəvi xüsusiyyətlərə malik İlıqsu mineral bulağı bu ərazilərin turizm imkanlarını genişləndirəcək. Termal turizm xəstələrin sağlamlıq üçün geotermal bulaqlardan yararlana bildiyi, eləcə də cəlbedici məkanlarda dincələ biləcəyi müalicəvi turizm növüdür. Bu bölgədə çoxlu mineral suların olması turizmin bu növünün inkişafına imkan verəcək. Onu bərpa etmək üçün təkcə Azərbaycan vətəndaşlarını deyil, həm də xarici turistləri cəlb edəcək yeni xəstəxanalar və sanatoriyalar tikmək lazımdır. Termal sağlamlıq turizminin ən mühüm faydaları aşağıdakılardır:

- turizmin mövsümi xarakterini aradan qaldırmaq;
- müxtəlif hədəf bazarlara daxil olmaq üçün turizmin şaxələndirilməsi;
- turizm baxımından inkişaf potensialı olan regionlar üçün imkanların yaradılması;
- iş yerlərinin yaradılması.

Regionda ekoturizm məhsullarının yaradılması üçün məharətlə istifadə edilməli olan böyük təbii sərvətlər var. İşğaldan azad edilmiş ərazilərdə eko otellərə üstünlük vermək lazımdır. Yaşıl otellər bütün forma və ölçülərdə və müxtəlif məsuliyyət səviyyələrində olur, lakin bu otellərin bütün xüsusiyyətlərinin ümumi məqsədi karbon emissiyalarını minimuma endirmək və ətraf mühitə müsbət təsir göstərmək üçün işləməkdir. Oteli yaşıl edənin bir neçə əsas aspekti bunlardır: 1) Enerji qənaəti otellərə əhəmiyyətli faydalar gətirir, əməliyyat xərclərini nəzarətdə saxlamağa və azaltmağa və

emissiyaları minimuma endirməyə kömək edir. 2) Suya qənaət: Suyun təkrar dövriyyəsi və filtrasiya sistemləri quraşdıraraq, otellər uzun müddətdə əhəmiyyətli pula qənaət edə bilər [4,361].

Bundan başqa, Xudafərin vasitəsilə İrandan, Naxçıvan üzərindən isə Türkiyədən turistlərin gəlməsi mümkün olacaq. İşğaldan azad edilmiş ərazilərə bu iki istiqamətdən turist axını gözlənilir. Azərbaycan turizminin prioritet bazarı var ki, bu istiqamətdə də işlər aparılacaq. Bu ərazilərə turizm marşrutları ilə bağlı müxtəlif ideyalar var ki, bunlar hazırlanan strategiyada öz əksini tapacaq.

Turizmə qoyulan investisiyalar yerli sahibkarlar üçün də yeni məhsullar və imkanlar yaradır. Xarici investisiyanını cəlb edilməsi ölkələr arasındakı rəqabətin mənbələrindən biridir. Ölkəyə xarici investisiyaların cəlb olunmasında ən böyük rolu turizm sahəsi oynayır. Bu yolla ölkəyə gələn şəxslər ölkədəki mövcud vəziyyətlə və potensial ilə tanış olurlar. Dünya Turizm və Səyahət Şurasının apardığı sorğu nəticəsində yerli sahibkarların 86%-i bildirmişdirlər ki, turizm sahəsinə qoyulan xarici investisiyalar sayəsində turizmlə yanaşı bölgədəki digər sahələrdə də yeni iş imkanları yaranmışdır. Bu investisiyaların da 24 %-i Qarabağa istiqamətləndirilmişdir [9].

Hazırda dünya ölkələrində, o cümlədən Azərbaycanda turizm sektoru fəaliyyətsiz olsa da, yerli turizm potensialının təbliği davam etdirilir. Əlimizdə olan bu imkanlardan maksimum yararlanmalı və Qarabağı təkcə Azərbaycanın deyil, dünyanın ən gözəl bölgələrindən birinə çevirməliyik.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycanın kurort təsərrüfatı. Qasımov Maqsud, Soltanova Həbibə, Ağasıyev Həbib. Bakı, 2018.

2. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair “Strateji Yol Xəritəsi”. Bakı, 2016.

3. Azərbaycan Respublikasında turizm və onun inkişafı – Soltanova Həbibə Bayraməli qızı, 2015.

4. Azərbaycan ekoturizm potensialı II cild. Qərib Məmmədov, Elman Yusifov, Mahmud Xəlilov, Vüqar Kərimov. Bakı, 2012.

5. Turizmin iqtisadiyyatı. Nizami Qafarov “Kooperasiya nəşriyyatı”. 2019.

6. World Tourism Organization “Tourism Highlights 2014”.

7. https://www.respublica-news.az/news/qarabag-turizm-mekanina-cevrilecek

8. Turizm və rekreasiya zonalarının yaradılması üçün Qarabağda mühüm turizm potensialı mövcuddur. https://azertag.az/xeber/Turizm_ve_rekreasiya_zonalarinin_yaradilmasi_uchun_Qarabagda_muhum_turizm_potensiali_movcuddur-1897937

9. https://news.unec.edu.az/ekspert-reyi/7528-ishgaldan-azad-olunmush-erazilerin-turizm-potensiali